# SARIYEV ZAUR RƏŞİD OĞLU



Zaur Sarıyev 28 iyun 1974-cü ildə Şəmkir rayonunun Qaralar kəndində anadan olmuşdur. 1989-cu ildə orta məktəbi bitirdikdən sonra Gəncə şəhər texniki peşə məktəbində elektrik-qaynaqçı peşəsinə yiyələnmişdir. 1993-cü ildə Milli Ordu sıralarına çağırılmışdır. Qusar rayonunda hərbi təlim keçdikdən sonra döyüş bölgəsinə göndərilmişdir. Döyüş yolu Tərtərdən başlayan Zaur Sarıyev sonralar Füzuli, Ağdam, Kəlbəcər və Murovdağa qədər gedib çıxmışdır. 1994-cü ildə o, döyüşçü yoldaşları ilə birlikdə Murovdağ istiqamətində kəşfiyyata çıxarkən mühasirəyə düşməsinə baxmayaraq, düşmənə ciddi müqavimət göstərərək, 13 gündən sonra mühasirədən çıxmağa müvəffəq olurlar. Lakin, Zaurun əl-ayağı donmuşdu. Bir müddət müalicə aldıqdan sonra yenidən cəbhəyə yollanmışdır. Daha sonra 776 saylı hərbi hissədə xidmətə başlamışdır. 1995-ci il mart hadisələri zamanı bir qrup silahlı dəstə dövlət çevrilişinə cəhd edir. Nizami ordunun əsgərləri silahlı dəstə ilə üz-üzə qalır. 17 martda silahlı dəstənin zərərsizləşdirilməsi zamanı Zaur qəhrəmancasına həlak olmuşdur. Şəmkir rayonundakı Şəhidlər Xiyabında dəfn edilmişdir. Subay idi. Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı Fərmanı ilə Sarıyev Zaur Rəşid oğlu ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adına layiq görülmüşdür.